Nuray Mahmudova Mətləb qızı
Dilçilik üzrə magistr
Azərbaycan Dillər Universiteti
Müstəqil tədqiqatçı
Bakı, Azərbaycan
Email: nuray_mahmudova@outlook.com
ORCID ID: 0009-0000-7758-5201

Nuray Mahmudova Metleb
MA in Linguistics
Azerbaijan University of Languages
Independent researcher

Baku, Azerbaijan
Email: nuray_mahmudova@outlook.com
ORCID ID: 0009-0000-7758-5201

UDC 81.373.21

ALMAN DİLİNDƏ ÇAY ADLARININ MORFOLOJİ İNKİŞAFI VƏ ETİMOLOGİYASI

Xülasə: Bu tədqiqatda Hind-Avropa və German dil tarixi kontekstində Dunay, Reyn, Elba və Odra çay adlarının morfoloji inkişafı və etimoloji mənşəyi araşdırılır. Hidronimlər yer adlarının ən qədim təbəqələrindən biri hesab olunur və tarixi dil əlaqələri, miqrasiya prosesləri, eləcə də mədəni inkişafl mərhələləri haqqında məlumat mənbəyi kimi çıxış edir.

Tədqiqatın əas məqsədi tarixi mənbələrə, fonoloji dəyişikliklərə və etimoloji yanaşmalara əsaslanaraq bu hidronimlərin diaxronik inkişafını təhlil etməkdir. Araşdırmada həm Hind-Avropa mənşəli izahlar, həm də german və kelt dilinin təsirləri nəzərə alınmışdır.

Təhlil nəticəsində müəyyən edilmişdir ki, araşdırılan çay adlarının böyük hissəi “su”, “axmaq”, “hərəkət”, “bolluq” kimi semantik sahələrlə bağlı qədim köklərə əsaslanır, ya da bəzi hallarda çayların fiziki xüsusiyyətləri – axının sürəti, suyun həcmi və coğrafi xarakteri – adlandırmada ikinci dərəcəli motivasiyaedici amil olmuşdur. Bu, xüsusiyyət xüsusilə Dunay və Reyn hidronimlərində daha aydın müşahidə olunur.

Beləliklə, tədqiqat göstərir ki, hidronimlər yalnız linqvistik-tarixi vahidlər deyil, həm də qədim sivilizasiyaların mədəni və coğrafi yaddaşını əks etdirən onomastik göstəricilərdir.

Açar sözlər: hidronim, etimologiya, Hind-Avropa dil tarixi, Dunay, Reyn, Elba, Odra

THE MORPHOLOGICAL DEVELOPMENT AND ETYMOLOGY OF RIVER NAMES IN GERMAN

Abstract: This study investigates the morphological development and etymological origin of the river names Danube, Rhine, Elbe and Oder in the context of Indo-European and Germanic language history. Hydronyms are considered one of the oldest layers of place names and serve as a source of information on historical language connections, migration processes, as well as stages of cultural development.

The main aim of the study is to analyse the diachronic development of these hydronyms, based on historical sources, phonological changes, and etymological approaches. The research takes into account both Indo-European explanations and the influences of Germanic and Celtic languages.

The analysis has determined that a large proportion of the river names under investigation are based on concepts such as “water”, “flood”, “movement”, are based on ancient roots related to semantic fields such as “water”, “foolish”, “movement”, or, in some cases, the physical characteristics of the rivers – the speed of the current, the volume of water and their geographical character – have been a secondary motivating factor in their naming. This is particularly clearly observed in the hydronyms of the Danube and the Rhine.

Thus, the study shows that hydronyms are not only linguistic-historical units but also onomastic indicators reflecting the cultural and geographical memory of ancient civilisations.

Keywords: hydronym, etymology, Indo-European language history, Danube, Rhine, Elbe, Oder

Giriş

Hidronimlər onomastikanın əsas sahələrindən biri olmaqla su obyektlərinin xüsusi adlarını ifadə edir. Termin yunan mənşəli hydor (“su”) və onoma (“ad”) sözlərinin birləşməsindən yaranmışdır. Hidronimlər qədim dillərin, etnik tarixinin və məskunlaşma proseslərinin öyrənilməsində xüsusi əhəmiyyət daşıyır. Bu fikir hələ Gottfried Wilhelm Leibniz tərəfindənirəli sürülmüş, o, çay adlarının ən qədim dil təbəqələrini və xalqların miqrasiyasını əks etdirdiyini qeyd etmişdir [5, s. 264]. Jakob Grimm də coğrafi adların araşdırılmasının dil və tarix haqqında mühüm məlumat verdiyini vurğulamışdır [4, s. 297]. Ernst Förstemann isə çay adlarını onomastik tədqiqatın “yonulmamış inciləri” adlandırmışdır [2, s 31].

Albrecht Greule “Deutsches Gewässernamenbuch” əsərində hidronimləri müəyyən coğrafi əhəmiyyətə malik su obyektlərini ifadə edən linqvistik işarələr kimi səciyyələndirir [3, s. 1]. Azərbaycan Onomastikasında isə təbii (okean, dəniz, göl, çay, bulaq) və ya süni su obyektlərinin, bataqlıqların xüsusi adları kimi izah olunur [1, səh. 74].

Alman dilinin ümumi lüğətində su obyektlərini ifadə edən vahidlər funksional və semantik xüsusiyyətlərinə görə müxtəlif qruplara bölünür: Strom (böyük çay), Fluss (çay), Bach (kiçik çay), Graben (xəndək), Kanal (kanal), See (göl), Teich (kiçik göl/gölməçə), Weiher (süni və ya kiçik su hövzəsi) [3]. Axar sular birlikdə Flussnamen, durğun su hövzələri isə birlikdə Seenamen kimi təsnif olunur. Müəyyən bir bölgəyə və ya dövrə aid bütün su adlarının sistemli şəkildə öyrənilməsi hidronimiya adlanır [3, səh. 100].

Müxtəlif ad sinifləri arasında adın ötürülməsi prosesi nəticəsində yaranan müəyyən əlaqələr müşahidə olunur. Xüsusilə hidronimlərlə və oykonimlər arasında sıx əlaqə mövcuddur, çünki yaşayış məntəqələri çox vaxt yaxınlıqda yerləşən çay və ya gölün adını qəbul edir. Bununla yanaşı çayın hissələri, vadilər, bölgələr və əkin sahələri də həmin hidronimlər əsasında adlandırılır.

Bu məqalədə alman dilində mühüm yer tutan Dunay, Reyn, Elba və Odra çay adlarının tarixi formaları, morfoloji inkişaf mərhələləri və etimoloji izahları müqayisəli-tarixi yanaşma əsasında təhlil olunur.

Tədqiqat

Dunay (alm. Donau) Volqadan sonra Avropada ikinci ən uzun və ikinci ən böyül çay hesab olunur. Onun mənbəyi Almaniyanın cənub-qərbində, Baden-Vürtemberq torpağında yerləşən Qara Meşə (alm. Schwarzwald) bölgəsindədir. Çay şərq istiqamətində axaraq bir sıra Avropa ölkələrinin ərazidinfən keçir və Rumıniyada delta yaradaraq Qara dənizə tökülür.

Bu hidronim müxtəlif dillərdə fərqli formalarda işlənir: alman dilində Donau, azərbaycan dilində Dunay, macar dilində Duna, türk dilində Tuna, slovak və xorvat dillərində Dunaj, serb və bolqar dillərində Dunav, rumın dilində isə Dunarea şəklindədir. Tarixi mənbələrdə çayın adı latın dilində Danubius və Danuvius, orta yüksək alman dilində isə Tuonouwe qeydə alınmışdır [3].

Bir sıra tədqiqatçılar bu adın çox qədim Hind-Avropa mənşəli danu - kökü ilə əlaqəli olduğunu göstərirlər. Həmin kökün “çay”, “axan maye” mənalarını ifadə etdiyi ehtimal olunuur. Bu semantik paralellər müxtəlif qədim dillərdə də müşahidə edilir: Vedik sanskritdə dānu – “maye, damcı”, Avesta dilində dānu – “çay”, Osetin dilində don – “su, çay” mənalarını verir.

Ümumiyyətlə, bu sözün kökü çox qədim Hind-Avropa dilində “su” və ya “çay” mənanlarında işlənmişdir. Bu faktlar hidronimin arxaik leksik təbəyə aid olduğu göstərir.

Adın formalaşması ilə bağlı bəzi etimoloji yanaşmalara görə, ilkin mərhələdə danu kökündən (“çay”, “axan maye”) *daneu-o (“çaya aid olan”) tipli sifət formasının yarandığı, daha sonra isə *Daneu-ios kimi rekonstruksiya olunan xüsusi ad formasına keçidyi ehtimal edilir. Sonrakı mərhələdə bu formanın kelt dillərində fonetik fonetik dəyişikliklərə uğrayaraq latın dilində Danuvius/Danubius şəklində sabitləşdiyi düşünülür. German dillərində isə hidronimin sonradan *Donawjo tipli forma əsasında müasir Donau formasını aldığı əbul edilmişdir.

Beləliklə, burdan aydın olur ki, Dunay hidronii ilkin olaraq ümumi leksik vahid kimi “çay” və ya “su axını” mənasını daşımış, zamanla xüsusi ada çevrilmişdir. Bu nümunə qədim hidronimlərin ümumi isimlərdən onimləşmə prosesi nəticəsində formalaşmasını aydın bir şəkildə nümayiş etdirir.

Reyn (alm. Rhein) çayı Avropanın ən mühüm su arteriyalarında biri olmaqla qitənin yeddinci ən böyük çayı hesab olunur. Onun mənbəyi İsveçrənin Qraubünden kantonunda yerləşir, çay Almaniya və digər Mərkəzi Avropa ərazilərindən keçərək Niderlandda Şimal dənizinə tökülür. Tarix boyu Reyn həm təbii sərhədr, həm də ticarət və mədəni əlaqə xətti kimi böyük əhəmiyyət daşımışdır.

Bu hidronim müxtəlif dillərdə fərqli formalarda işlənir: alman dilində Rhein, fransız dilində Rhin, niderland dilində Rijn, reto-roman dilindı isə Rain, Rein, Rogn, Ragn və digər variantlar mövcuddur. Çayın adı qədim yazılı mənbələrdə yunan dilində isə Rhēnos / Rhenos, latın dilində isə Rhenus şəklində qeydə alınmışdır. Roma müəllifləri, o cümlədən Yuli Sezar və Katullus tərəfindən də bu forma işlədilmişdir. Orta əsr mənbələrində isə Hrin (762), Rin (763) və Reine (1295) kimi yazılı formalarına rast gəlinir [3, səh. 437].

Bu sözlərin tarixi mənşəyini *Reinos, yəni “coşan, qaynayan, burulğanlı (çay)” mənalarına uyğun gəldiyi qeyd olunur. Bu adın *rei kökü ilə əlaqəli olduğu ehtimal edilir. Həmin kök “coşmaq, burulmaq, axmaq” kimi mənaları ifadə etdiyi bildirilir.

Bu etimoloji yanaşmaya görə, “Reyn” adı çayın hidroloji xüsusiyyətlərini əks etdirir və “coşqun axan”, “burulğanlı”, “sürətli axınlı çay” mənalarını ifadə etmiş ola bilər. Xüsusilə adın yuxarı axın hissəsində, Alp dağları ərazisində sürətli cərəyan və güclü axın müşahidə edildiyindın, adın həmin bölgədə formalaşmış olması ehtimal edilir. Bəzi tədqiqatlarda Reyn şəlaləsinin (Rheinfall) də bu bu semantik motivasiya ilə əlaqəli ola biləcəyi qeyd olunur. səbəb olmuş ola bilər [3].

Alternativ yanaşmalardna birinə görə, hidronim kelt dillərində mövcud olmuş xüsusi ad formasından da qaynaqlanmış ola bilər. Bu halda adın deonimik xarakter daşıdığı, yəni əvvəlcədən mövcud xüsusi addan törədiyi ehtimal olunur.

Bununla da belə nəticəyə gəlirik ki, Reyn hidronimi qədim Hind-Avropa mənşəli olmaqla əsasən çayın fiziki xüsusiyyətlərini ifadə edən semantik motivasiya ilə bağlıdır. Bu ad hidronimlərin təbiət obyektlərinin xarakterik cəhətlərinə əsasən formalaşmasının klassik nümunələrindən biridir.

Elba (alm. Elbe) çayı Mərkəzi Avropanın ən mühüm çaylarında biridir. Onun mənbəyi Çex Respublikasında yerləşir, sonra Almaniya ərazisindən keçərək Şimal dənizinə tökülür. Bu hidronim müxtəlif dillərdə fərqli formalarda işlənir: alman dilində Elbe, çey dilində Labe, yuxarı və aşağı sorb dillərində osə Łobja / Lobja kimi variantlara rast gəlinir.

Antik müəlliflərin əsərlərində çayın adı Albis, Albim, Albios, Albiu, Alba kimi formalarda qeyd olunmuşdur. IX əsr mənbələrində qədim ingilis dilində Ælfe (Elbanın mənsəbi üçün), qədim sakson və qədim yüksək alman dillərində isə Albia formaları müşahidə olunur [3, səh. 120]. Bu müxtəlif formalar hidronimin uzun tarixi inkişaf yolu keçdiyini göstərir.

Morfoloji baxımdan bəzi tədqiqatçılar adın ilkin mərhələdə Albi tipli formaya malik olduğunu, daha dərin səviyyədə isə bunun feminin *jō-kök əsasında izah edilə biləcəyini qeyd

edirlər. Bu yanaşmaya görə, nominativ *Albi, genitiv isə *Albjos şəklində rekonstruksiya olunur. Sonrakı mərhələdə *Albjos formasının fonetik sadələşmə nəticəsində *Albja şəklinə keçdiyi ehtimal edilir. German dillərində baş verən sonrakı səs dəyişmələri, o cümlədən umlaut prosesi nəticəsində isə Elbe / Elve tipli formaların meydana gəldiyi güman edilir.

Bu hidronimlə ümumi isimlər arasında semantik əlaqə də diqqətəlayiqdir. Bəzi tədqiqatlarda qədim skandinav dilində elfr – "çay", orta aşağı alman dilində elve – "çay yatağı" sözləri ilə paralellər göstərilir. Bu fakt hidronim ilə ümumi leksika arasında qarşılıqlı təsir ehtimalını gücləndirir [3].

Elba adının etimologiyası ilə bağlı bir neçə fərqli nəzəriyyə mövcuddur. Geniş yayılmış izahlardan birinə görə, ad Proto-Hind-Avropa *albho- ("ağ") kökü ilə əlaqəndirilir. Bu halda hidronim "ağ çay" mənasında izah oluna bilər. Lakin bəzi tədqiqatçılar böyük çayın yalnız rəng xüsusiyyətinə görə adlandırılmasını kifayət qədər inandırıcı hesab etmirlər [3].

Altenativ yanaşmalardan birinə görə, ad qədim Albion (Britaniyanın qədim adı) etnonimi və ya kelt və digər dillərdə "torpaq", "dünya" semantik sahəsi ilə əlaqəli ola bilər. Dərin etimoloji ehtimala əsasən isə proto-kök *el- ("qidalandırmaq", "bəsləmək") ilə bağlı olub, "yaşayışı təmin edən, bəsləyən məkan" mənasını ifadə etmiş ola bilər [3]. Semantik baxımdan bu yanaşma çayın insan məskunlaşması və kənd təsərrüfatı üçün əhəmiyyətini nəzərə aldıqda daha əsaslandırılmış görünür.

Beləliklə, Elba hidronimi həm mürəkkəb morfoloji inkişaf yolu, həm də çoxqatlı etimoloji izahları ilə seçilir. Bu nümunə qədim Avropa hidronimlərinin müxtəlif dil qatlarının təsiri altında necə dəyişdiyini aydın şəkildə göstərir.

Odra (alm. Oder) çayı Mərkəzi və Şərqi Avropa regionunda yerləşən mühüm hidronimlrdən biridir. Çay Çexiyada dağlıq ərazilərdən başlayır, Polşa-Almaniya sərhədi boyunca axaraq Şetsin laqunu vasitəsilə baltik dənizinə tökülür. Alman dilində Oder, çex dilində Odra, bəzi slavyan dillərində isə müxtəlif fonetik variantlarının şəklində işlənir.

Tarixi mənbələrdə bu hidronimin müxtəlif formalarına rast gəlinir: Odera, Oddere, Odere, Oderam, Oddira, Odri, Odre, Odram kimi yazılışlar qeydə alınmışdır. Lakin ən ilkin formanın Odra olduğu və onun fonetik variantlarının zamanla formalaşdığı ehtimal edilir [3, səh. 384].

Etimoloji baxımdan Odra hidronimi üçün bir neçə izah mövcuddur. Birinci yanaşmaya görə, ad Proto-Hind-Avropa mənşəli *ued kökü ilə əlaqələndirilir və "qaynamaq, su çıxmaq, axmaq" mənalarını ifadə edir. Bu kökdən *udro ("su ilə bağlı olan", "isladan", "daşqın yaradan") tipli törəmə formanın yarandığı, daha sonra isə Udra / Odra hidroniminə çevrildiyi ehtimal olunur. Bu interpretasiyada fonetik fonetik dəyişikliklər nəticəsində *u səsinin bəzi german və slavyan dillərində *o səsinə keçməsi mühüm rol oynayır.

İkinci yanaşmaya görə, hidronim *eudh- kökü ilə əlaqələndirilir. Bu kök "bolluq", "zənginlik", "məhsuldarlıq" semantik sahəsi ilə bağlıdır. Latın dilində uber ("bol, məhsuldar") və qədim skandinav dilində auðr ("sərvət") sözləri bu köklə müqayisə olunur Bu yanaşmada Odra hidroniminin *udh kökündən törəyib, *udh-ro – *udra – *odra və nəticədə Odra formasının meydana gəlidyi ehtimal olunur [3, səh. 385]. Bu nəzəriyyəyə əsasən Odra çayının ikinci bir mənasının "su baxımından zəngin çay", "bol sulu çay" kimi izah edildiyini görürük. Çayın adlandırlamasındakı motivasiya çayın mənsəb hissəsinə görə də ola bilər, çünki bu mənsəbdə su çoxdur və geniş deltaya bənzər bir sahə mövcuddur.

Bəzi tədqiqatlarda üçüncü yanaşma da irəli sürülür. Bu yanaşmaya əsasən Odra çayının alternativ adlarından biri də Adradır. Bu variant üçün isə başqa bir izah verilir. Bu yanaşmaya əsasən adın Hind-Avropa mənşəli *et (at) kökündən gəldiyi qeyd edilir, mənası isə "getmək, hərəkət etmək" deməkdir. Buradan belə bir nəticə çıxır ki, çay "axan, hərəkət edən su" mənasında olan feildən törəyibdir. Bu kökün sadəcə Odra çayı ilə deyil, həmçinin digər baqşa hidronimlərlə də əlaqəsi qeyd olunur. Məsələn, Adice çayının (Etsch, qədim adı Atisa) adında da bu kökü görürük. Hind-Avropa dillərində tez-tez gördüyümüz t – d ("at" – "ad") səs dəyişməsi (assimilyasiya) bu adlarda da özünü göstərir. Bu alternativdəki nümunələrə baxanda iki fərqli kökün qarışması ehtimalı da mövcuddur. İki fərqli feil kökü dedikdə qeyd etdiyimiz *et (getmək, hərəkət etmək) və *ed (qurumaq) fellərinin zamanla qarışmış (kontaminasiya) prosesi baş vermiş

olduğu güman edilir. Bu iki kökdən oxşar formalı *et-tro – atro, *ed-ro – adro sifətlərinin yarandığı qeyd olunur. [3]. Bu yanaşmaya görə, semantik və fonetik yaxınlıq bu formaların zamanla qarışmasına səbəb olmuşdur.

Beləliklə, Odra hidronimi çoxqatlı etimoloji izahlara malik olmaqla həm "axan su", həm də "bol su" semantik sahələri ilə əlaqələndirilir. Bu müxtəlif yanaşmalar hidronimlərin interpretasiyasında alternativ rekonstruksiya modellərinin mövcudluğunu göstərir.

Nəticə

Tədqiqatlar göstərir ki, Dunay, Reyn, Elba və Odra kimi alman hidronimləri qədim Hind-Avropa dil qatına gedib çıxan mürəkkəb morfoloji və etimoloji inkişaf proseslərinin nəticəsidir. Bu çay adlarının semantik əsasında əsasən "su", "axın", "hərəkət" və "bolluq" kimi anlayışlar dayanır.

Müqayisəli-tarixi analiz nəticəsində müəyyən edilir ki, bu hidronimlər zamanla müxtəlif dil ailələrinin (kelt, german, latın və slavyan) fonetik və morfoloji sistemlərinə uyğunlaşaraq dəyişmirdir. Eyni zamanda bəzi hallarda çayların fiziki xüsusiyyətləri, yəni axının gücü, suyun miqdarı və coğrafi strukturu adlandırma prosesində əsas motivasiya rolunu oynamışdır.

Ümumilikdə, hidronimlərin öyrənilməsi yalnız dil tarixi və etimologiya baxımında deyil, həm də qədim Avropa sivilizasiyalarının mədəni-coğrafi inkişafının rekonstruksiyası baxımından vacib elmi əhəmiyyət daşıyır. Bu baxımdan alman hidronimləri qədim dil təbəqələrinin və tarixi əlaqələrin öyrənilməsi üçün material kimi çıxış edir.

Ədəbiyyat:

1. Adilov, M., Paşayev, A.: Azərbaycan Onomastikası. Bakı – "Elm" – 2019. 104 səhifə. (səh. 74-75)
2. Förstemann, E.: Die deutschen Ortsnamen, Nordhausen 1863, S. 31.
3. Greule, A.: Deutsches Gewässernamenbuch: Etymologie der Gewässernamen und der zugehörigen Gebiets-, Siedlungs- und Flurnamen. De Gruyter. 20 Jan. 2014. 648 pages.
4. Grimm, J.: Kleinere Schriften, Bd. 5, Berlin 1871, S. 297
5. Leibniz, G.W.: Die philosophischen Schriften, hrsg. v. Gerhard C.I., Bd.5, Berlin 1882, S.264